**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№326/2** **17 dekabr 2020-ci il**

## "İnnovasiya tətbiq edilən müəssisələrdə auditin aparılmasına dair tövsiyələr" barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planının 1.13-cü "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi" bəndinə dair plan-proqram"ın 4-cü "İnnovasiyada auditin tətbiqi istiqamətləri üzrə proqramın hazırlanması" bəndinə müvafiq olaraq Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış "İnnovasiya tətbiq edilən müəssisələrdə auditin aparılmasına dair tövsiyələr"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "İnnovasiya tətbiq edilən müəssisələrdə auditin aparılmasına dair tövsiyələr" bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində "İnnovasiyada auditin tətbiqi istiqamətləri üzrə tövsiyələr" auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.
3. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir ay müddətində innovasiya tətbiq edilən müəssisələrdə maliyyə hesabatlarının auditini aparan, habelə innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli xidmətlər göstərən auditorların Palata tərəfindən sertifikatlaşdırılmasına dair təklifləri hazırlayıb təqdim etsin.
4. Bu qərarın və tövsiyələrin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**